**AQTA-nın əməkdaşlıq elədiyi qurumlar**

1. **Çex Respublikasının Kənd Təsərrüfatı Nazirliyi (Ministry of Agriculture of the Czech Republic)** ölkədə kənd təsərrüfatı, o cümlədən qida təhlükəsizliyi, baytarlıq və fitosanitar sahələrdə dövlət siyasətinin formalaşdırılması və icrasına cavabdeh əsas qurumdur. Nazirlik Avropa İttifaqı qanunvericiliyinə uyğun olaraq normativ bazanı tənzimləyir və aidiyyəti dövlət xidmətlərinin fəaliyyətini əlaqələndirir. https://mze.gov.cz/en
2. **Çexiya Dövlət Baytarlıq Administrasiyası (State Veterinary Administration)** Kənd Təsərrüfatı Nazirliyinə tabe olan bu qurum heyvan sağlamlığının qorunması, zoonozların qarşısının alınması, baytarlıq nəzarəti altında olan məhsulların idxalı, ixracı və daxili dövriyyəsinə nəzarət, eləcə də heyvanların identifikasiyası və qeydiyyatı sahəsində fəaliyyət göstərir. Qurum həmçinin baytarlıq sənədlərinin verilməsi və monitorinqini həyata keçirir. https://en.svscr.cz/
3. **Çexiya Kənd Təsərrüfatı və Ərzaq Müfəttişliyi (Central Institute for Supervising and Testing in Agriculture – ÚKZÚZ)** Bu qurum bitki sağlamlığı, fitosanitar nəzarət, bitki mühafizə vasitələrinin və gübrələrin qeydiyyatı və monitorinqi ilə məşğuldur. Həmçinin idxal və ixrac olunan bitki mənşəli məhsullara fitosanitar yoxlamalar aparır və fitosanitar sertifikatlar verir. https://ukzuz.gov.cz/public/portal/ukzuz/en